Əziz dost,

Qəribədir ki, mən elə bir insana yazıram kiminlə ki bəlkə heç öz vətənində görüşməyəcəm də. Elə bir insana yazıram ki, təyyərəylə, qatarla yaxud avtobusla onun yanına gedə bilmərəm, hərçənd ki coğrafi baxımdan çox yaxınıq. Əgər biz görüşmək istəsək ən asan variant Gürcüstanda görüşməsi olar, orda isə sən öz evini göstərib "Mən burada yaşayıram, içəri gir gedək çay içək, mənim sənə danışacaq çox şeyim var" deyə bilməzsən. Bizi ayıran fiziki sərhədlərdir, lakin fiziki sərhədlərdi icad edən də mənavi sərhədlərdir. Bizi ayıran divarları hökümətlərimiz, siyasətçilərimiz, müəllimlərimiz qohum-qonşularımız hörüblər. Divarlar ki, tarixi və özünədərk anlayışını qarışdırır bəzən isə saxtakarlıqdan ibarətdir. Divarlar ki, bizi sual soruşmaqdan çəkindirilər çünki bizim kimi xalqların tarixlərində hələ də tam aydın olmayan məqamlar var, və mövcud olanlara alternativ axtarmaq hərdən qorxuludur. Elə alternativlər ki bəlkə də qaliblərin və məğlubların var olması şərt deyil. Alternativlər... harada ki biz aşırı dərəcə humanistik. Çünki insanlar daxilən həm yaxşı həm də bəddirlər... insanlar səhvlər buraxırlar, onlar həm düzgün həm də yanlış şeyler edirler...

Qəribədir ki, mən və sən heç vaxt bir-biri ilə görüşməməyimizə baxmayaraq bizi bir-birimizdən uzaq qalmağı öyrədiblər. Sən və mən ki, bu qədər ortaq dəyərlərimiz və ənənələrimiz var. Biz ki qonaqpərvərlik, əxlaq və qardaşıq kimi eyni mədəniyyətə sahibik. Biz hamımız düzgün olanı etmək istəyirik, və qonşularımız üçün də düzgün olanı etmək arzusundayıq. Biz eqoist xalq deyilik. Biz başqaları üçün də düşünürük.

Əgər biz küçədə rastlaşsaydıq və sən yıxılıb dizni zədələsəydin mən çantamdan sarğı çıxarıb sənə yardım təkilf edərdim, əminəm eynisini sən də edərdin. Çünki biz qanayanda ikimizin qanı da qırmızıdır.

Evlərimizə qayıddığımızda xəbər tutuanda ki qardaşlarımız və dostlarımız əsgərliyə çağırırlar biz ikimiz də ürəklərimizdə eyni qorxu hissini yaşayırıq.

Qardaşlarımızın əsgərliyə getdərkən yə də əsgərlikdən onlar deyil onları tabutu gələndə analarımızın fəryadı eynidir. Həmin acını həm bizim həm sizin analarınız çıkir.

Onlar bu dünyada dərddən, əzəblərdən, hirslərdən nalə çəkəndə eyni sözləri səsləndirilər.

Mənim dostum, bəlkə də düşünürsən ki, mən hər şeyi irdal kimi qələmə verirəm, ya da adiləşdirirəm. Bəs sən heç soruşmusan ki, niyə irdallaşdırmaq bu qədər asan olmalıdır? Niyə? Çünki biz ədavəti, sərhədlərlə, ərazilərlə bağlı bu idealları bir kənara qoyduqda qarşı tərəfdə, qarşıdakı insanda olan insani dəyərləri görmək çox asan olur. Biz bir an düşünüb özümüzə sual verəndə başa düşürük ki, o qədər şey var ki biz heç vaxt dayanıb bu haqda düşünməmişik.

Təbii ki, bu da çox asan səslənir. Mən, təbii,bu qədər sadəlövh deyiləm ki, düşünüm ki bir neçə məktub, bizim kimi düşünən bir neçə insan bu gün ya da gələn həftə neysə dəyişdirə bilərlər.

Mən inanıram ki, bizim örnəyimizin dəyişikliklər gətiəcək gücü var. Bu vorkşoplara gəlməklə biz stsus-kvonu şübhə altına alırıq, bizə danışılanlardan imtina edirik münaqişəyə, düşmənçiliyə, fərqlərə “yox” deməklə biz dəyişiklik gətiririk.

Biz özümüzlə və ətrafımızda olan insanlarla bu məsələləri barədə danışmaqla bu günüməzə və sabahımıza dəyişiklik gətiririk.

Mən ətrafımda maraqlanmış insanlar görürəm. İnsanlar ki artiq yorulmuşlar. Onlarda sual yaranır. “Niyə belə olmalıdır.” Və burdaca biz deyirik:“Belə olmamalıdır”

Əziz dostum, qəribə deyilmi ki, mən, sən və bizim yaşıdlarımız heç vaxt görüşməyiblər, və əgər heç nə dəyişməsə görüşməyəcəyik. Belə də valideynlərimiz, nənələrimiz, babalarımız əvvəllərdə eyni küçəni gəzirdilər,  oxuduqları son kitabını müzakirə edirdilər. Amma biz və yaşıdlarımız bəlkə də heç vaxt bəşəriyyətə xas olan bu təcrübəyə malik olmayacaq.

Ümidvaram ki, bizim yəni mənim və sənin gördüyümüz iş bir gün bunları bizim üçün də mümkün edəcək.

Ümidvaram ki, bir gün sən evini göstərərək məni içəriyə dəvət  edib? “Gəl çay içək, sənə danışacaq o qədər şey var ki” deyəcəksən.

Hörmətlə Anais